Poetik gəmim sualtı qayalardan məharətlə keçib

Çingiz Əlioğlu: "Müasir dövrün şairlərini idmançılarla müqayisə edərdim. Şairlərin bir qismi hündürlüyə, bir qismi irəliyə tullananlardır. Hündürlüyə tullanıb ucalığa çatanlar və irəliyə tullanıb daha tez qabağa getmək arzusu ilə yaşayanlar var".

- Həqiqət bəzən vaxtında deyiləndə, o həqiqəti deyənə bəla gətirir. Zamanında yazıb çap etdirə bilmədiyiniz şeiriniz, yaxud başınıza bəla gətirən hansısa əsəriniz olubmu?

- Çap etdirmədiyim əsərlər var, bunlar müxtəlif dönəmlərdə yazdığım şeirlərdir. Bu şeirlərin çapını lazım bilmədim və heç bir kitabıma da daxil etmədim. Bu şeirləri araşdırmaq artıq gələcək tədqiqatçıların işidir. Amma çap etdirdiyim cürətli şeirlərim var. Mənim poetik gəmim çox vaxt sualtı qayalardan məharətlə keçib. Sovet dövründə kifayət qədər cəsarətli şeirlər yazırdım. 1968-ci ildə çıxan şeirlərimdən biri "İstedadı yetirənlərin nəğməsi" adlanırdı. Bu, Azərbaycan xalqının nəğməsi idi, çünki istedadı xalq yetirir. Orada deyilirdi ki, "biz alovun qüdrətiyik", "bir ovuc küldə gizlənmişik", "biz sükunətik, içimizdə bir dəlisov qışqırıq var, ancaq bilirik ölərik, qışqırsaq", "biz daim açılıb yığılan yayıq", "hər açılanda yaradıcılıq fəzasına istədadlar tullayırıq", "biz sirrik, biz kəşfik, bacarıqlı ələrdə düşüncəli beyinlərdə açılmağa tələsirik". Maraqlıdır ki, bu şeirlər o vaxt çap olunurdu. Həmin şeirlərə senzorların simpatiyası olub-olmadığını bilmirəm. Çünki həmin vaxt senzurada işləyən adamlar da azərbaycanlılar idi, ziyalılar idi, xalqın azadlıq istəklərini, azadlıq ruhunu hiss edən, başa düşən insanlar idilər. Ona görə də çox zaman şeirlərimin dərcinə problem yaratmırdılar. Jül Renar deyirdi ki, həqiqəti tam açmağa dəyməz. Ancaq gərək hər şeyi olduğu kimi deyəsən. Odur ki, Siseronun tövsiyəsinə əməl edib, heç nəyi təsdiq etmədən danışmaq qərarına gəldim. Çünki, insan yalan danışanda onun köpək dişləri görünür. Bunu da Renar deyib. Məşhur Yekaterina isə deyirdi ki, istədiyini danışan adam istəmədiyini də eşidir.

- Çingiz müəllim, sizin şeirləriniz senzuradan keçdiyi vaxt, Vaqif Səmədoğlunun və ya Vaqif Cəbrayılzadənin şeirləri senzura idarələrində ilişib qalırdı. Bu paradoks nə ilə bağlı idi?

- Hesab edirəm ki, bu, müəyyən mənada onların özləri ilə bağlı məsələ idi. Onlar çox vaxt öz şeirlərini heç çapa vermirdilər. Məlumdur ki, Vaqif Səmədoğlu müəyyən vaxt öz şeirlərini mətbuata verməmişdi. Belə məqamlar var idi. Vaqif Səmədoğlu böyük şairlərimizdəndir. Bolşevik ideologiyasının dəqiq qurulmuş basqı mexanizmi var idi. "Amerikanın səsi" radiosu Vaqif Səmədoğlu, Vahid Əziz, mənim haqqımda veriliş yayımlamışdı, burada ə-yağa düşmüşdülər. Hansı ki, bizim heç birimizin heç nədən xəbərimiz yox idi. Və ya Pribaltikada bir dissident şairin evindən axtarış zamanı mənim təbrik məktubum çıxmışdı. Həmin dəqiqə də demişdilər ki, bunların nə əlaqəsi var. Amma indi dünya Azərbaycan şairi üçün açıqdır. Dünyanın müxtəlif ölkələrində nə qədər şair dostlarım var, baxmayaraq ki, mən epistolyar janrda, yazışmalara çox tənbəl adamam.

Yeri gəlmişkən, qeyd edim ki, "Kaspi"də xətrini çox istədiyim nisbətən cavan şairin müsahibəsində oxudum ki, indiki şairlər altmışıncılardan da güclü şairlərdir. Həmin şairin adını çəkməyəcəyəm, amma bu, çox səhv qənaətdir. Altmışıncı illər şairləri Vaqif Səmədoğludur, Məmməd İsmayıldır, Musa Yaqubdur, Ələkbər Salahzadədir, İsa İsmayılzadədir. Onlar Çağdaş Azərbaycan şeirinin peyğəmbərləri, imamlarıdır və mən müasir dövrün adı çəkilən şairləri arasından onlarla yanaşı dayana biləcək gücdə birini hələ ki, görmürəm. Hər şeydə ədalət və ölçü duyğusu olmalıdır. Olmasa, Azərbaycan şeirinin XX əsrinin ikinci yarısı, XXI əsrin birinci rübünün əhatə etdiyi zaman kəsimində çağdaş Azərbaycan şeirinin inkişafının yeni universal alqoritmi düzgün təyin edilməyəcək. Bu, vacib şərtlərdən biridir. Müasir dövrün şairlərini idmançılarla müqayisə edərdim. Şairlərin bir qismi hündürlüyə, bir qismi irəliyə tullananlardır. Gizli, ya aşkar yarış azartı... Hündürlüyə tullanıb ucalığa can atanlar və irəliyə tullanıb daha tez qabağa getmək arzusu ilə yaşayanlar var. Bir sıra şairlər isə mən özümü də bura aid edirəm, kənara tullanmaqla məşğuldurlar. Müqəddəs peyğəmbərimiz Məhəmməd əleyhissəlam də kənara çəkilirdi, dağlarda ona vəhy gəlirdi. Məsəl üçün, mən şeiri çox zaman dua kimi yazıram. Adlarını çəkdiyim şairlərin yaradıcılığında da bu, qabarıq görünür. Daha çox alışq, şükür duası yazıram. Ölüm duası yazan şairlər də var. Əslində, poeziya həm də duanın ayağı sürüşkən qızıdır.

- Dövri mətbuat tarixini izləyəndə görürük ki, daim ədəbi qəzet və jurnallarda şeirləriniz dərc edilib, şeir kitablarınız işıq üzü görüb, müxtəlif vəzifələrdə işləmisiniz, saysız səfərlərdə olmusunuz. Əgər bunlar olubsa, siz kənara çəkilmək nəyə deyirsiniz?

- Mən daha çox dərəcədə öz içinə qapanan adamam. Evimdə çoxlu rəsmlər asıldığı kimi daxilimdə olan hissiyyat kahasında da duyğularımın qeyd vərəqləri asılıdır. O ki qaldı gəzmək, getmək, mən Sovet hökumətinin dağılmasına bir il qalmışa qədər xaricə getmək hüququ olmayan şair olmuşam. Bakı Şəhər Partiya Komitəsi məni Vyetnama göndərilən nümayəndə heyətinə daxil etmişdi, amma getməyə bir gün qalmış məni həmin qrupdan çıxartdılar. Və bir gün televiziyada rəhmətlik Yaşar Nuri danışırdı ki, həyatımda çox qəribə bir hadisə olub: bir dəfə sənədlərimi bir günün içində düzəldib məni Vyetnama göndərdilər. Allah ona rəhmət eləsin. Mən bir yerdə oturan deyildim, daha çox Pribaltikada olurdum. Çünki orada azadlığa açılan nəfəslik bir qədər geniş idi. Ona görə mən, Latviyada, Litvada 6-8 ay qalırdım.

- Xaricə buraxılmamağınızın səbəbi nə idi?

- Nə bilim, fakt bu idi ki, adımı siyahılardan çox zaman çıxarırdılar. Amma Sovetlər daxilində bütün poeziya festivallarına göndərirdilər. Mən arxivində Yeltsinin imzası ilə Fəxri Fərman olan yeganə Azərbaycan şairiyəm. Belə bir qərar qəbul etmişdilər ki, gənc şairləri zərbəçi komsomol tikintilərinə yollasınlar və onlar oradan yazı hazırlasınlar. Kitab, partiyanın XXVI qurultayına kollektiv hədiyyə olmalı idi. Bizi əvvəlcə Sverdlovsk şəhərinə yığdılar. Yeltsin o vaxt Vilayət Partiya Təşkilatının rəhbəri idi. Sonra bizi partiya göndərişi ilə müxtəlif bölgələrə yolladılar. Bilərəkdən Tatarıstanı seçdim ki, orada Moskva olimpiadasına baxa bilim, çünki onların bizə münasibəti çox yaxşı idi. Oradakı "Kamaz" zavodunda cəmi bir gün oldum. 17 gün olimpiadaya baxandan sonra gəldim ki, lazımi qeydləri götürməşəm, beləcə, məni buraxdılar. Həmin kitab Azərbaycan yazıçısının yazısı olmadan çıxdı. Tapşırılan yazını yazmadım. Arxivimdə o dövr SSRİ Yazıçılar İttifaqının rəhbəri V.Karpovun imzası ilə məktub hələ də qalır ki, kitab hazırdır, sizin əlyazmanızı gözləyirik. Heç vaxt o zamankı rejimə çəpik çalan şeirlər yazmamışam. Yazıçılar Birliyinin mənə münasibəti həmişə yaxşı olub. Rəhmətlik İmran Qasımovun vaxtında məni bütün Sovet İttifaqı ölkələrinə tədbirlərə göndərirdilər. Ola bilsin ki, bu rus dilini yaxşı bildiyimə görə idi.

- Ayrı-ayrı kitablarını oxuyarkən eksperimentlərə rast gəlirik. Eksperimentlərə münasibət adətən, iki cür olur. Bir qisim düşünür ki, şairlər ədəbiyyatın, dilin imkanını sınamaq üçün eksperimentlər edirlər. Bir qisim də deyir ki, öz üslubu olmayan şairlər daim eksperimentlərə meyilli olurlar ki, üslublarını tapsınlar. Bu barədə fikirlərinizi bilmək istərdim.

- Düzü "eksperiment" sözündən zəhləm qaçır. Bu sözü yaradıcılığımla bağlı işlədən ilk dəfə Nizaməddin Şəmsizadə olub. Onun özünə də demişəm ki, mən eksperiment aparmıram. Mənim qəbul elədiyim şair mənsub olduğu şeirin əksər mövcud formalarında yazmağa çalışanlardır. Şeir forma ilə bir yerdə doğulur. Yaradıcılığında forma əlvanlığı olmayan şairi şair hesab etmirəm. Çünki əgər şeir ilk növbədə dil hadisəsidirsə, orada dilin bütün imkanları açılmalıdır. Bu isə fərqli intonasiya və ritmdə yazılan şeirlərdə öz ifadəsini tapır. İntonasiya və ritm isə şeirin canıdır, əsasıdır. Mən əruzu bilmirəm, amma musiqi duyumum var deyə, utanmadan qəzəl də yazmışam. Şair hər şeydən əvvəl səsə açılmalıdır. Şairin içindəki həyəcanı ilk növbədə doğuran bunlardır.

- Başqa dilə çevrilərdə dilə bağlı fərqliliklər itir ancaq...

- Bəli, itir. Mənim bir dostum var, İlham Bədəlbəyli, AYB-nin Moskva filialının məsul katibidir. Şairlərimizdən çoxlu tərcümələri var, amma mənim şeirlərimdən birini də tərcümə etməyib. Soruşram ki, niyə yazdıqlarımdan tərcümə etmirsən? Deyir sənin şeirlərini tərcümə edə bilmərəm, göz görə-görə öz dostumun kəsdiyi kərpicləri tapdalamaq mənlik deyil. Məsələ də bundadır ki, o cür ucuzluğu, yəni xalqını, onun dil imkanlarını unudub yazmaq lazım deyil. Sən mənsub olduğun xalqın dili üçün yazmalısan və xalqın qəbul elədiyi poetik deyim tərzləri də sənin şeirində öz əksini tapmalıdır.

- Tərcümə etdiyiniz müəllifləri hansı meyarla seçirsiniz?

- Bəzilərini nəşriyyatlar sifariş verib, qonoları da yaxşı olub. İstər forma, istər məzmun cəhətdən zəngin şeirlər diqqətimi cəlb edir, istəyirəm ki, həmin əsərlər Azərbaycan oxucusuna çatsın. Ədəbiyyatla maraqlanan gənc nəslin də əli çatsın. Universitetlərdə dərs deyəndə görürdüm ki, gənclərin çoxu rusca bilmir. Ardıcıl tərcümələr etməkdə bir istəyim də odur ki, dil bilməyən gənclər də bu şeirləri oxuya bilsinlər. Həm də mən bekar dayanmağı xoşlamıram. Mütləq hansısa işlə məşğul olmalıyam. Və mən yazmayanda, oxumayanda tərcümə ilə məşğul oluram, seçim isə öz zövqümə uyğun olur. Bəzən də rus dilində yazan dostlarımın əsərlərini tərcümə edirəm.

- "Məmur", "Hər şeydən sonra", "Parıltılı tramvay lal göylərdən boylanır" və s ictimai motivli şeirləriniz var. Siz, adətən, problemlərdən danışan, ictimai mövqeyi qabarıq olan şair deyilsiniz. Görünür, şeirlərinizdə mövqeyinizi ifadə etməyə daha çox üstünlük verirsiniz. Bu, dəqiq müşahidədir?

- Bəli, mən narazılığımı və narahatlığımı şeirlə ifadə edirəm. Bu, həmin yaşam, özümü dərketmə, ifadəetmə tərzimdir. Belə yazılarım saysız-hesabsızdır. Məsəl üçün, "Of" poeması... İfadə, deyim, forma tərzi baxımından Azərbaycanda elə bir yazı yazılmayıb. Uzun illər də yazılmayacaq. Bilirsiniz, tramvay söküləndə bu məni nə qədər narahat etdi, o, kasıb insanların istifadə etdiyi bir nəqliyyat idi. Nə qədər məzmun, gözəllik gətirirdi şəhərə. Şeirlərimdə ictimai mövqe olduqca qabarıqdır

- Hər şeir kitabınızda bir neçə zarafatyana şeir olur. Məsələn, "Qonşunun iti", "Sevgi şeirləri yaza bilmirəm" və s. Bəzən belə yazmağınız nədən qaynaqlanır, bu "sözün düzünü zarafatla deyərlər" prinsipidir, yoxsa?

- Şübhəsiz, birinci bu prinsipdir, yəni sözü zarafatla demək. Yeri gələndə insan özünə yumor hissilə yanaşmağı bacarmalıdır. Oxlov udan adamlardan xoşum gəlmir. Əksər adamlarda eqoist insan təsəvvürü yaradıram, amma bu, mənim zirehimdir.

- Bəzi şeirlərinizdə oxuculara aydın olmayan, az işlənən sözlər var. Bu sözlərin çoxunu "Azərbaycan dilinin izahlı lüğət"ində də tapmaq müşküldür. İstərdim bu barədə danışasınız...

- Dostlarım da mənə zəng edib şeirlərimlə bağlı fikirlərini bildirəndə təzə sözlərdən də danışırlar. Sözləri yadda saxlamaq baxımından hafizəm güclüdür. Baxmayaraq ki, şeirlərimi yadda saxlaya bilmirəm. Dilimiz zəngindir, ancaq "Azərbaycan dilinin izahlı lüğət"ində sözlərin çoxu yoxdur. Bəzən sözlərin yazılışını dəqiqləşdirmək üçün lüğətə baxıram, lazım olan sözləri tapmıram. Başa düşmürəm, bu qədər pullar xərclənilib, bəs nəticə hanı? Bir dəfə uşaqların anası mənə dedi ki, hansı sözlər lüğətdə yoxdursa, onların siyahısını tut ver dilçilərə, ancaq bu mənim işim deyil axı, o sahəyə cavabdeh olan kəslər var, onlar ə-yağa düşməlidir.

- Çox işlək olmayan sözləri işlətməkdə məqsədiniz onları yenidən dilə qazandırmaqdı, yoxsa məqamı düşür deyə istifadə edirsiniz?

- Əvvəla, alimlərin tədqiqatının nəticəsidir ki, dünyada hər on beş gündən bir dil ölür. Dünyada üç mindən çox dil var. Biz dilimizi yaşatmasaq, Azərbaycan dili öz ifadəliliyini, genişliyini əldən verər və dilimizə xarici sözlərin basqısı artar. Bizim evin yanında "Bişmiş" adında restoran açdılar, çox gözəl addır. Çünki öz sözümüzdür, dil belə yaşamalıdır. Hətta, şair yeni sözlərin yaranmağında da iştirak etməlidir.

- Yeni sözlər yaratmısınız?

- Bəli, ancaq o sözlər, şeirlərin içindədir, amma az saydadır. Allah dilimizi qorusun, mən çox xoşbəxtəm ki, bu dildə yazıram. Azərbaycan dili həddindən artıq mütəhərrik, çevik və ifadəli dildir. Mənə zəng vurub şeirlərimlə bağlı fikir deyəndə, təzə sözlərlə bağlı da danışırlar. Həmin şeirləri açıb baxıram ki, nə təzə söz? Heç bir təzə-söz zad yoxdur orda, hamısı söz xəzinəmizdəndir, sadəcə, insanlar o sözləri unudublar, işlətmirlər.

Bizim ən böyük sərvətimiz ana dilimizdir. Şairin də ən ümdə vəzifəsi o dili qorumaq, xidmət etmək, dilin bütün ifadə vasitələrini aşkarlamaq və yarana biləcək havanı, avazı üzə çıxartmaqdır.

- "Məhbubə xalamın xatirəsinə", "Alma budağına bənzəyir həyat", "Ağlayan qadın", "Uşaqlıqda yamanca ağlayan olmuşam" və s. şeirlərinizdə ağır kədər var. Amma zahirən çox nikbin görünürsünüz.

- İnsanlar arasında maskalanmağı, yerli-yersiz özümü düşüncəli göstərməyi sevmirəm. Həyat dolu insanam, yaşamağı sevirəm. Şeirlərimdəki ağrıları mən həyatımda yaşamışam. Mərhum xalamı çox istəyirdim... Bütün ailə üzvləri tez bir zamanda dünyadan köçdülər, "Məhbubə xalamın xatirəsinə", şeiri ondan sonra yazıldı. İndi o şeirdən "alıb öz payını göz yumur torpaq" misrasını xatırladım...

- Az qala əli ildir ədəbi mühitdəsiniz. Özünüzdən sonra gələn şairlərin şeirlərində sizdən təsirləndiklərini müşahidə etmisinizmi?

- Bəli, olub, fikirləşərəm, həmin şairlər çox da böyük səhv eləmirlər (gülür). Ürəyimdə arzulamışam ki, onlar şeirdə daha qabağa getsinlər. Mən xalqı oturduğu yerdən işdir olur, qatılıram. Kitablar orda az sayda paylanır, qalanını da satışa verirlər. Çıxışçılar da danışıb tərifləyirlər. Cürbəcür də adlar qoyurlar ki, kitab diqqət çəksin. İlk kitabımın adı "Nikbinlik" olub. Kitabın adı nə qədər aydın olsa, bir o qədər yaxşıdır.

- Siz postmodernizm söhbətləri təzə-təzə ortalığa atılanda postmodernistlərə seriya şeirlər də yazmışdınız. Əslində, orada müəyyən ironiya, ələsalma da var idi. Həmin şeirləri yazmaq hansı ehtiyacdan doğdu?

- Məqsədli şəkildə heç nə etmirəm. Məndə ani qopan əks-sədalar olur. Təzə kitab hazırlamışam, bu il çap etdirəcəyəm. Orada yazmışam ki, avanqardla postmodern təkcə iki ayrı-ayrı anlayış deyil, bunlar antonimlərdir. Avanqarda inam var ki, nəyisə yerlə yeksan edib yenisini yarada bilər. Postmodernist isə yorulub əldən düşmüş sinikdir. Postmodernizm, əslində, estetik halsızlıq vəziyyətidir. O deyir ki, dünyada hər şeyin qiyməti birdir, bu qiymət özü də bir şey deyil. Ənənələrini özünün də dəyəri bir qəpikdir. Bu səbəbdən də onların mühafizəsini boş şey sanır. Postmodernist üçün bütün zamanlar eyni sifətdədir və heç nəyi dağıdıb yenidən yaratmaq iqtidarında deyil, o ancaq yarananı imitasiya edə bilir və edir. Mənim postmodernizmlə bağlı münasibətim belədir. Bütün "izm"lər simvolizm axınının dünya mədəniyyəti okeanına töküldüyü yerdə yaratdığı deltanın qollarıdır. Dolayısı ilə bütün ədəbi cərəyanlar haması simvolizmin içindən çıxıb.

- Cavanlıqda daha çox sərbəst şeirlər yazmısınız, ancaq son 20 ildə heca vəznində daha çox poetik əsərlər qələmə alırsınız. Sərbəst şeir haqqında fikirlərinizi bilmək maraqlı olardı.

- Bu gün də sərbəst şeirlər yazıram və onlar dövrü mətbuatda çap olunur, ancaq daha çox hecaya müraciət edirəm. Sənət öz itki və uğur yolu ilə irəliləyir. Şeirin ənənəvi formalarından inkarın gətirdiyi ziyan göz qabağındadır. Şeir öz fonetik sahmanını itirir, misra sıralarının sıxlığı seyrəlir, nitqin fizioloji lətafəti zəifləyir. Uğura, qazanca gəldikdə ölçü qəfəsindən azad olmuş nitqə təbii azadlığı qayıdır. Nəfəsi heç nə ilə tıncıxmayan ahəngləri təbii ifadəliliyi ilə səsləndir. Ahəng, intonasiya misranın, cümlənin canı, ruhudur və sərbəst şeir hansısa mənada ruhu azad edir. Hər şeyi kəsə, yığcam və uyarlı şəkildə ifadə etmək mümkün deyil, bəzi fikirlərin xarakteri özünün dayanmamış təmkinlə, bəzən inamsız düşüncə tərzini açıqlayan tərzdə ifadəsini tələb edir. Bu vaxtda şairin dadına sərbəst forma yetişir.

- Çox ölkələrdə olmusunuz, xarici səfərlər sizə yaradıcılıq baxımdan nə verib?

- Məlumat zənginliyi, müxtəlif xalqların mədəniyyəti ilə tanışlıq, xarakterlər, adamlar, adət-ənənələr. Mən demək olar ki, turist şeirləri yazan şairlərdən deyiləm. Az hallarda, bir ya iki turistik şeir yazmış olaram. Şair çox narahat ruh daşıyıcısıdır. O, dünya fəzasına çıxmaq istəyir. Dolayısı ilə özü də bunu bildi-bilmədi, zənginləşir. Onun poetik arsenalı daha mükəmməl ifadə silahları ilə zənginləşir. Mənim sovetlərdə getmədiyim yer qalmamışdı. Bu səfərlərdə də özüm üçün qəribə kəşflər edirdim və buna sevinirdim. Məsələn, məşhur rus yazıçısı Viktor Astafevin "Çar balıq" əsəri oxumuşdum. Orada yazılmışdı ki, "İqarkada həmişə yanğın olur". Biz böyük bir şairlər dəstəsilə oraya gedəndə gördük ki, şəhər mədəniyyət evi yanır. Amma heç kim buna təəccüblənmir. Məlum oldu ki, bu şəhərdə hər şey ağacdan, taxtadandır, ona görə burada həmişə tez-tez yanğınlar olur. Bu mənim üçün maraqlı kəşf idi.

- Ədəbiyyat aləminə atılanda idealınız nə olub və gerçəkləşibmi?

- Maraqlı sualdır. Əvvəla, o zaman şair olduğumu düşünmürdüm. İndi də bu haqda danışmağı xoşlayan adam deyiləm. Amerika şairi Robert Frostun gözəl bir fikri var ki, "özü haqqında "mən şairəm" demək, "mən yaxşı adamam" demək qədər qeyri-təvazökar bir şeydir". İdeal barədə heç zaman düşünməmişəm. Amma diqqətimi cəlb edən şairlər var idi. Məsələn, Lorka. Türkiyəli şairlər Orxan Vəli, Nazim Hikmət. Yeseninin faciəli həyatı yandırırdı ürəyimi. Sonralar mütaliəm daha da genişləndi. Başladım dünya poeziyası ilə tanış olmağa. "Yuxular şəhərində" poemam 16 ilə yaxın Azərbaycan oxucusuna doğru yol getdi. İlk dəfə Latviyada "Ədəbiyyat və mədəniyyət" qəzetində latış dilində çap olundu. Sonra Moskvada rus dilində çap olundu, sonra Azərbaycanda işıq üzü gördü. O vaxtlar həmin poemanı "Azərbaycan" jurnalına vermişdim. Jurnalın poeziya şöbəsinin müdiri hörmət etdiyim adam idi, həm də Yazıçılar İttifaqının partiya təşkilatı katibi idi. Poema isə anti-sovet poema idi. Açıq-aşkar Lenin əleyhinə yazılmışdı. Həmin katib rəy yazmışdı ki, bu, qətiyyən poema deyil, olsa-olsa Appolinerin, Rembonun və Viyonun, Verlenin təqlididir. Mən də indiki Nefi və Sənaye Universitetində oxumuş adam, nə bilirdim Viyon, Verlen kimdir?! Televiziyada bir dəfə demişəm ki, həmin adama minnətdaram, çünki o hadisədən sonra gedib həmin müəlliflərin kitablarını tapıb oxudum (gülür). Beləliklə, başladım Avropa poeziyası ilə tanış olmağa. Amma alman poeziyası ilə çox da maraqlanmırdım, çünki müharibə dövrünün uşağı idim və təhtəlşüurumda onlara qarşı bir aqressiya var idi. Sonralar mən gördüm ki, dünya ədəbiyyatında çox nəhəng imzalar var. Amma heç vaxt kumirim olmayıb. Xristian dinindəki qadağalardan biri budur ki, heç vaxt özünə kumir yaratma. Mərhələ-mərhələ yaradıcılığımla diqqətimi cəlb edən şairlər olub. O şairlərin özüm üçün zəif yerlərini də kəşf etmişəm. Höte nahaq yerə deməyib ki, elm poeziyadan başlayır. Mənim üçün poeziya ilk növbədə elmdir. Poeziya haqqında araşdırma aparmaq mənim qarşıma qoyduğum məqsədlərdən biridir. Məsələn, bizim Ramiz Rövşən kimi nəhəng şairimiz var. Çox istərdim ki, o, poeziya haqqında düşüncələrini qələmə alsın. Çox maraqlı alınar. Biz bəzən olanlarımızın qədrini bilmirik, bu da həddindən artıq özümüzlə məşğul olmağımızdan irəli gəlir.

- Elə şeirləriniz var ki, qəribə səslənməsi var. Alterasiyalar, assonansların müşayiəti. Məsələn, yazırsınız, "Bir ucu da burcuda-burcuda Andromeda bürcünə gedib çıxır bürcümün". Bu tipli bəzi şeirləriniz var ki, oxucuya rahat çatmır, məna hasil etmək olmur.

- İnanın ki, çatır. Burada qəsdən düzəldilmə heç nə yoxdur. Bunu yazmaq çətindir, gərək özü gələ.

- Yuxarıdakı misra sizə şeirinizdəki kimi gəlib?

- Bəli, Mən heç vaxt zina işlərlə məşğul olmamışam, ən böyük zövqüm dildən aldığım ləzzət olub. Dil insanın həm nitq, həm dadbilmə orqanıdır, həm də fərdin özünəməxsus ləhcəsinin formalaşmasına təsir edən vasitədir. Dilin özünün qəribə təbii metafizikası var.

- Azərbaycan dilində otuzdan çox kitabınız çıxıb. Amma belə bir fikir var ki, şairdən, adətən, bir kitab qalır. Ümumiyyətlə, ədəbiyyatda kəmiyyət məsələsi nə dərəcədə önəmlidir?

- Kəmiyyət, göstəricisi heç vaxt mənim üçün əsas deyil, amma işləmək tələbatı həmişə olub. Poeziya sanki zərgərlik emalatxanasıdır. Orada çıxanlar hamısı eyni keyfiyyətdə olmur. Onu biliram ki, gələcək Azərbaycan şeirinin araşdırıcıları üçün mənim nə zamansa qoyub gedəcəyim irsdə çoxlu maraqlı işlər olacaq.

- Özünüzü Sovet ədəbiyyatından və poeziyasından nələri öyrənmiş hesab edirsiniz və kimlərin timsalında?

- Rus dili mənim üçün böyük dünya ədəbiyyatı yatırmına, xəzinəsinə aparan açar rolunu oynayıb. Çünki mən dünya ədəbiyyatından da əksər hissəsini rus dilində oxumuşam. Rus ədəbiyyatından, poeziyasından ilk növbədə Lermantov və Blok mənim üçün önəmlidir. Həmçinin Anna Axmatova, Marina Svetayeva. Bir yəhudi əsilli rus yazıçısı var idi, deyirdi ki, Svetayeva dahiyanə şairdir, amma Axmatovadan öyrənmək lazımdır. Məsələn, Vladimir Sokalov var idi, çox səmimi və həssas şair idi. Onun belə işıqlı olması məni cəzb edirdi. Lermantov demonik gücü olan bir şairdir. Deyilənlərə görə, Puşkin möhtəşəm şair olub. Amma heç vaxt məndə xüsusi maraq oyatmayıb. Daha çox onun prozasını bəyənirəm. Blok isə rus ədəbiyyatının facieli dövrünün şairi idi. O, dostlarına inqilabərəfələrində məktubunda yazır ki, biz Rusiyanın qanlı illərinin övladlarıyıq. Nikolay Tryapkin var idi, ancaq şeirlərini oxuyanda dili doləşmırdı. Gözəl şair idi.

- Anna Axmatova və Marina Svetayeva hansı cəhətlərilə sizi cəzb eləmişdi?

- Məni cəzb edən Anna Axmatovanın həyat faciəsidir. Svetayevasa həddən artıq poetik gücə malikdir. Sovet ədəbiyyatında elə şairlər var idi, rus şeirinin görkəmli yaradıcıları kimi təqdim olunurdular, amma elə deyildi. Əsl rus şeirinin yaradıcıları kölgədə qalırdı.

- O vaxt Azərbaycan ədəbiyyatında da mənzərə Rusiyadakına oxşar idi?

- Demək olar ki, hə. O vaxt Azərbaycan şeirinin yaradıcılarına böyük qısqanclıq var idi. Rəhmətlik Cəlal Məmmədov Leninin 100 illiyində məni çağırıb tapşırdı ki, aprel ayında Leninin yubileydir, istəyirsən bir poema, ya da silsilə şeirlər yaz, jurnalda verək. Soruşdum ki, mən niyə? Çünki o dövrdə bu mövzuda yazan konkret imzalar var idi. Dedi ki, onlar çox yazıblar, çox çap olunublar, biz istəyirik cavanlardan kimsə önə çıxsın. Bilirdim ki, Cəlal müəllimə çox ehtiyatla etiraz etmək lazımdır. Dedim ki, Cəlal müəllim, bu çox ciddi mövzudur, mən hələ bu mövzunu yazmağa hazır deyiləm. Həmin o nömrə jurnal bizim şairlərimizdən adını çəkmək istəmədiyim birinin şeirlərilə açıldı (gülür).

- Müxtəlif məsul vəzifələrdə çalışmısınız. Adətən, belə vəzifəyə öyrəşmiş adamlara işdən çıxmaq asan olmur. Siz 70 yaşınız tamam olanda dövlət qulluğunda tələb olunan qaydada işdən ayrıldınız. Müəyyən bir rejimə, qrafikə öyrəşmiş biri kimi sonra həyatınız darıxdırıcı olmadı, özünüzü boşluqda hiss etmədiniz ki?

- Müvafiq qanunvericiliyə görə, 65 yaşdan pensiyaya çıxmalıydım, amma buraxmırdılar. 70 yaşım olan kimi ərizəmi yazıb göndərdim Əbülfəz Qarayevə. Cənab nazir məni çağırdı dedi ki, səni buraxmaq istəmirəm. Dedim ki, icazənizlə bundan sonrakı həyatımı özüm üçün yaşamaq istəyirəm, amma nazirliyin əsgəri kimi nə zaman bir iş tapşırsanız, görməyə hazıram. O da çox sağ olsun, xahişimi qəbul elədi. Bu gün də mən onlarla əməkdaşlıq edirəm. Orada bəzi layihələrin rəhbəriyəm. Təqaüdə çıxandan sonra hiss elədim ki, İlahi, insan necə xoşbəxt ola bilərmiş. Onsuz da mən hər gün saat 5-də ayılırdım, 8-ə kimi yazıb, çörək yeyib gedirdim işə. Qayıdandan sonra da evə gəlib yazırdım, tərcümə edirdim. Yəni, elə böyük fərq olmadı, amma vaxt, azadlıq baxımından görürəm ki, indi daha rahatam.

- Bizim şairlərin, eyni zamanda yazıçıların xaricdə kitabları çap olunur, amma sonradan xaricə gedəndə kitab sərgilərində, mağazalarında onlara rast gəlmək olmur. Uzun illər xarici ölkələrlə əlaqələri olan bir şair kimi bunun səbəbini nədə görürsünüz?

- Məsələn, mənim ilk kitabım Moskvada 28 min tirajla, sonrakı kitabım on min tirajla çıxmışdısa, indikilər 500 tirajla çıxır. Ruslar özlərini də böyük tirajla çap etmirlər. Rusiyanın əhalisi bizdən çoxdur axı. Yəni, bizim vəziyyətimiz heç də onlardan pis deyil. Bu dünyada ümumi bir mərəzdir. Mənim "Gün keçdi" kitabım 30 min tirajla çap olunmuşdu. Sovet hökuməti məcbur edirdi ki, şairlər ideologiyaya xidmət etsin. İndi-indi böyük mənada azad yazıçılar formalaşır, oxucular da kitaba qayıdır. Bir yandan da oxucu zövqünü ucuzlaşdırmaq baş alıb gedir. Baxırsan bəzi kanallarda həddindən artıq şit, bayağı söhbətlər gedir. Biz arzulayırdıq ki, ölkəmiz "hür" olsun, arzulamırdıq ki, "hır" olsun. Bu kı, lap "hır-hır" oldu.

- Bəs dünyanın ali ədəbi mükafatlarının yazarlarımıza verilməməyinin səbəbini necə izah edərdiniz?

- Mükafat özü də bir siyasətdir. Bizim Nobelə layiq yazıçılarımız var. Məsələn, Elçin, Kamal Abdulla, Anar. Nobel alanların nəyi onlardan artıqdır? Mənim tanıdığım bir ermənı şairi var idi. Onunla Sovet dövründə poeziya festivallarında görüşürdüm. İki il bundan əvvəl gördüm ki, Nobelə namizədlər arasındadır. Halbuki o, yaradıcılıq baxımından Vaqif Səmədoğlunun, Ramiz Rövşənin küçəyə atılan dırnağı deyil. Biz özümüz də yaradıcılarımıza sevgi ilə, diqqətlə yanaşmırıq.

Söhbətləşdi: Fərid Hüseyn

WWW.KASPI.AZ 8 aprel 2017